# Ulu öndərə sonsuz el məhəbbəti

(Əvvəli 1-ci səhifədə).

## Dahilik, zaman və müasirlik

cu ildə keçirilən məşhur avqust plenumu isə Azərbaycanın həyatında mühüm və şərəfli bir mərhələnin başlanğıcı oldu. 1969-1982-ci illər respublikamızda quruculuq salnaməsinin parlaq dövrü kimi tarixə düşdü. Ümummilli lider Heydər Əliyev hələ sovet dövründə böyük uzaqgörənliklə və müdrikcəsinə Azərbaycanın gələcək müstəqilliyinə hərtərəfli zəmin yaradırdı. Biz bunu çox-çox sonralar - tarixin imtahanına çəkilərkən dərk etməyə başladıq.

Ümummilli lider strateji hədəfləri zərgər dəqiqliyi ilə müəyyənləşdirmək və onları kompleks şəkildə həyata keçirmək bacarığı ilə fərqlənirdi. Balanslaşdırılmış və milli mənafeyə əsaslanan dövlət siyasəti, ictimai-siyasi sabitlik, iqtisadi və elmi-texniki tərəqqi, təhsil, müasir və güclü ordu, kadr hazırlığı, xalqın rifahı, milli dəyərlər - bütün bunlar ümummilli lider Heydər Əliyevin başlıca strateji hədəflərindən idi. Bu gün tam əminliklə demək olar ki, Azərbaycan bütün bu hədəflərə yetişib.



2003-cü ildən ötən dövr ümummilli lider Heydər Əliyevin ideya və idarəçilik məktəbinin əbədiyaşarlığının növbəti sübutu oldu. Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanı Heydər Əliyev yolu ilə apararaq regionun lider dövlətinə, dünyada söz və nüfuz sahibinə çevirib. Bu gün ölkəmiz sürətlə inkişaf edən iqtisadiyyatı, əlverişli geostrateji mövqeyi, zəngin mədəniyyəti və ənənəvi tolerantlığı ilə bütün planetin diqqət mərkəzindədir.

Ulu öndərin adını daşıyan, beynəlxalq imici durmadan artan Heydər Əliyev Fondu da bu dahi şəxsiyyətin mənəviyyat bulağından qaynaqlanır. Milli mənafeyə, soykökümüzə bağlı xeyirxah missiyası ilə seçilən Fond artıq sərhədlərimizi aşıb, dünyanın bir sıra ölkələrində həyata keçirdiyi humanitar layihələrlə məşhurluq qazanıb. Fondun reallaşdırdığı orijinal tədbirlər sayəsində incəsənətimiz və bənzərsiz mədəniyyətimiz yeni inkişaf mərhələsini yaşayır.

Azərbaycanın çağdaş dövrünün yeni intibah mərhələsinin banisi olan Heydər Əliyev şəxsiyyəti tükənməz və öyrənildikcə öyrəniləsi bir xəzinədir. Ulu öndər Azərbaycanın söykəndiyi dağdır. O dağın isə zirvəsi çox ucadır. Həmin uca zirvədə bərq vuran Günəşin - Heydər Əliyev dühasının tükənməz nuru Azərbaycana, xalqımızın gələcəyə gedən yollarına daim işıq salacaq.

# Ümummilli liderin xatirəsi ehtiramla anılıb

***Ulu öndər Heydər Əliyevin əbədiyyətə qovuşmasından 15 il keçir. Hər il dekabrın 12-də anım gününü yüksək ehtiramla qeyd etdiymiz ulu öndər Heydər Əliyev o şəxslərdəndir ki, bütün varlığı ilə sevdiyi xalqı tərəfindən heç vaxt unudulmayacaq, əksinə zaman keçdikcə onun xalqına göstərdiyi xidmətin böyüklüyü daha bariz şəkildə meydana çıxacaqdır. Heydər Əliyev xalqın hafizəsində müstəqilliyimizi və dövlətçiliyimizi qoruyub saxlayan, xalqın xoşbəxt gələcəyini təmin edəcək beynəlxalq layihələrə imza atan və öz əzəmətli şəxsiyyəti ətrafında xalqı birləşdirən bir dahi rəhbər kimi daim yaşayacaqdır. Azərbaycan xalqının xoşbəxtliyinə, ölkəmizin tərəqqisinə öz ömrünü həsr etmiş bu dahi şəxsiyyət yüksək vətənpərvərliyi, ölkəmizin çiçəklənməsi naminə mübarizliyi, milli-mənəvi dəyərlərimizə sonsuz məhəbbəti sayəsində bütöv bir xalqın idealına, müstəqil azərbaycanımızın rəmzinə çevirmişdir.***

***Xalqımız qürur hissi ilə təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan dövlətimizin bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməsini, Azərbaycan xalqının xoşbəxt gələcəyi, firavanlığı, sosial-iqtisadi, mədəni həyatının daha da çiçəklənməsi istiqamətində yeritdiyi siyasəti dəstəkləyir, ona böyük önəm verir.***

Ulu öndər Heydər Əliyevin anım günü ölkəmizin hər yerində olduğu kimi, Qəbələ rayonunda da böyük ehtiramla qeyd olunub. Dekabrın 12-də on minlərlə qəbələli dahi rəhbərin xatirəsinə ehtiramlarını bildirmək üçün onun abidəsinin ucaldığı Heydər Əliyev Parkına axışıb.




Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, RİH aparatının, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin, təhsil, səhiyyə, mədəni-maarif ocaqlarının, özəl qurumların kollektivləri ümummilli liderin abidəsi önünə gül-çiçək dəstələri düzüb, ulu öndərə dərin ehtiramlarını bildiriblər.





Anım mərasimi Qəbələ Mədəniyyət Mərkəzində davam etdirilib. Mərkəzdə yerli fırça ustalarının və məktəblilərin ulu öndərə həsr etdikləri rəsm əsərləri nümayiş etdirilib.

Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyəti haqqında ətraflı məlumat verib.

Qeyd olunub ki, xalqımızın dövlətçilik tarixində özünə əbədiyyət abidəsi ucaltmış, öz ölkəsi, xalqı üçün tarixi əhəmiyyətli işlər görmüş ümummilli lider Heydər Əliyevin fəaliyyətinin hər səhifəsi, hər anı Azərbaycan tarixinin yüksəliş mərhələləri ilə üst-üstə düşür.

Diqqətə çatdırılıb ki, dahi Heydər Əliyev hələ sovetlər birliyində yaşadığımız illərdə respublikanın rəhbəri kimi milli ruhun, milli özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qayıtması, müstəqil dövlətçilik ideyalarının gerçəkləşdirilməsi üçün əsaslı zəmin yaradıb. Sərt sovet rejiminin qadağalarına baxmayaraq cəsarətlə Azərbaycanda milli ruhun sıxışdırılmasına nəinki yol verməyib, əksinə, onu yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacarıb, Azərbaycanlı gənclərin keçmiş sovetlər ittifaqının nüfuzlu ali məktəblərində təhsillərini davam etdirməsi, elmi və kadr potensialının yüksəldilməsi istiqamətində uzaqgörən addımlar atıb.

Bildirilib ki, 1993-cü ildə Azərbaycanın bir dövlət kimi məhv olma təhlükəsi ilə üz- üzə qaldığı bir vaxtda xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdan müdrik rəhbərimiz Heydər Əliyev uzaqgörənliklə çox ciddi ictimai-siyasi problemlərlə, iqtisadi çətinliklərlə, düşmən təcavüzü, hərbi qarşıdurma ilə üzləşmiş Azərbaycanın parçalanmasının, müstəqilliyinin itirilməsinin qarşısını alıb, ictimai-siyasi sabitliyi təmin edib.

RİH başçısının çıxışında qeyd olunub ki, təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan dövlət quruculuğu prosesinin Prezident İlham Əliyev tərəfindən yüksək əzmkarlıqla davam etdirilməsi xalqımızda böyük ruh yüksəkliyi yaradıb. Onun həyata keçirdiyi strateji inkişaf kursunun uğurları sayəsində müstəqil Azərbaycan regionda lider dövlətə çevrilib. Ölkə başçısının yorulmaz fəaliyyəti nəticəsində dövlətçiliyimiz gündən-günə qüdrətlənir və Azərbaycanın beynəlxalq aləmdə rolu və nüfuzu artır.

Bu uğurların əsasını qoymuş ulu öndər Heydər Əliyevin adı isə qədirbilən Azərbaycan xalqının, bizim hər birimizin qəlbində daim yaşayacaqdır.

Tədbirdə məktəblilərin ifasında dahi şəxsiyyətə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

Ulu öndər Heydər Əliyevin anım günü axşama qədər davam edib.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**